Azərbaycan Texniki Universitetinin "Elektrotexnika" kafedrasının
28 noyabr 2022-ci il tarixli iclasının 3 saylı protokolundan

# ÇIXARIŞ

**İştirak etdilər:** 17 nəfər
**İştirak etmədi:** 4 nəfər

**3. Müxtəlif məsələlər:** "Elektrotexnika" kafedrasının dosenti S. N. Musayeva, ass. S.A.Kazbekova və ass. H.V.Fəttayev tərəfindən hazırlanmış "Elektrik dövrələri nəzəriyyəsi fənnindən laboratoriya işləri" adlı dərs vəsaitinin müzakirəsi.

**Dinlənildi:** Kafedra müdiri, dosent H.S.Əliyev məlumat verdi ki, dərs vəsaiti "Elektrotexnika" kafedrasında bakalavr pilləsində tədris olunan "Elektrik dövrələri nəzəriyyəsi" fənnini keçən tələbələrin laboratoriya dərsləri üçün nəzərdə tutulmuşdur. İclasın sədri, dərs vəsaitinə müsbət rəylərin alınmasından məlumat verdi və iclas iştirakçılarından dərs vəsaitinin qriflə çap olunmasına münasibət bildirilməsini xahiş etdi.

**Çıxış etdilər:** Kafedranın dosenti Ə. A.Məmmədov çıxış edərəkn bildirdi ki, dərs vəsaiti "Elektrik dövrələri nəzəriyyəsi" fənnindən laboratoriya dərslərinin tədrisi üçün faydalı materialdır. Kafedranın dosentləri M.M.Quliyev və L.H. Həsənova çıxış edərək dərs vəsaitinin tədrisdə istifadəsinin məqsədəuyğunluğunu, zəruriliyini qeyd etdilər. Müzakirədə iştirak edənlər hazırlanmış dərs vəsaitinin nəşr olunması üçün onun müzakirəsi məqsədi ilə "Energetika və avtomatika" fakültəsinin Elmi Şurasına təqdim edilməsini tövsiyə etdilər.

**Qərara alındı:** "Elektrotexnika" kafedrasının dosenti S.N.Musayeva, ass. S.A.Kazbekova və ass. H.V.Fəttayev tərəfindən hazırlanmış "Elektrik dövrələri nəzəriyyəsi fənnindən laboratoriya işləri" adlı dərs vəsaitinin tədrisdə istifadəsi məqsədəuyğun hesab edilsin və onun nəşr olunması üçün müzakirəsi "Energetika və avtomatika" fakultəsinin Elmi Şurasına təqdim olunsun.

Sədr: dosent H.S. Əliyev
Katib: ass. İ.M. Vahabzadə

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ PUBLİK HÜQUQİ ŞƏXS
SƏNƏDLƏR ÜÇÜN

CamScanner ile tarandı